

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 85 (23.497)

5 iyun 2020-ci il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 4 iyun tarixli sərəncamları ilə su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları da vardır.

**Əliyev Azad Bayraməli oğlu**

**Hacıyev Həsən Əlövsət oğlu**

**İsgəndərov Pərviz Ələkbər oğlu**

**Pircanov Mikayıl Abdulla oğlu**

"Tərəqqi" medalı ilə,

**Allahverdiyev Yəhya Salman oğlu**

"Əməkdar mühəndis" fəxri adı ilə təltif edilmişlər.

## Suvarma mövsümü mütəşəkkil keçir



Muxtar respublikada suvarma şəbəkələrinin əhatə etdiyi torpaqların əkilməsi və meliorativ tədbirlərin aparılması diqqət mərkəzindədir. Suvarma mövsümünün mütəşəkkil keçirilməsi və əkin sahələrinin suya olan tələbatını ödəmək üçün may ayında bir sıra tədbirlər görülmüş, 9,6 kilometr magistral kanal, 22,7 kilometr ara arxlar və 5,5 kilometr kollektor lildən təmizlənmiş, 1,8 kilometr yeni suvarma xətti çəkilmişdir. Bu dövrdə su istifadəçilərinə 62 milyon kubmetr su verilmiş, bunun müqabilində 52 min 909 hektar torpaq sahəsi suvarılmışdır.

Mütərəqqi suvarma şəbəkələrinin qurulması və yeni su xətlərinin çəkilməsi sahəsində görülən işlər ötən ay da diqqətdə saxlanılmış, Kəngərli rayonunun Böyükdüz kəndində 800, Şahbuz rayonunun Türkeş kəndində 270 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 15 kilometr uzunluğunda suvarma xətti çəkilmişdir.

Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq üçün 730 metr istiqamətləndirici bənd salınmış, həmçinin 61,8 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. Muxtar respublikada su təminatının həyata keçirilməsində subartezian quyularının və kəhrizlərin gücündən geniş istifadə olunur. Qeyd olunan dövrdə 96 subartezian quyusunda və 5 kəhrizdə təmir-bərpa işləri aparılmış, 1 kəhrizdə işlər başa çatdırılmış, 1 yeni subartezian quyusu istifadəyə verilmişdir.

Əhalinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunması, yaşayış məntəqələrində müasir kanalizasiya şəbəkələrinin qurulması istiqamətində görülən işlər davam etdirilmişdir. Bu dövrdə "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Babək rayonunun Nehrəm və Araz kəndlərində 2,5 kilometr su və 3,5 kilometr kanalizasiya, Sədərək rayonunda 5,4 kilometr su, 1,9 kilometr kanalizasiya, Kəngərli rayonunda isə 5,3 kilometr uzunluğunda su xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Muxtar respublikada 1983 vergiödəyicisinə dövlət maliyyə dəstəyi göstərilib

***Muxtar respublikada pandemiyadan zərərçəkmiş sahibkarlara dövlət maliyyə dəstəyinin göstərilməsi davam edir.***

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamına əsasən sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 4 iyun 2020-ci il tarixə muxtar respublikada pandemiyadan zərərçəkmiş sahələrdə fəaliyyət göstərən 1983 vergiödəyicisinə 2 milyon 205 min 438 manat vəsaitin həmin sahibkarların bank hesabına köçürülməsi təmin edilib.

Qeyd edək ki, təsdiq edilmiş müraciətlərə uyğun olaraq maliyyə dəstəyinin göstərilməsi haqqında mütəmadi məlumat veriləcək. Həmçinin maliyyə dəstəyi proqramı çərçivəsində müraciətlərin nəticəsi və vəsaitin bank hesabına köçürülməsi barədə bildiriş vergiödəyicilərinin İnternet Vergi İdarəsindəki *(vergi.nakhchivan.az)* elektron kabinetlərinə göndərilir. Yaranan suallarla bağlı vergiödəyiciləri Dövlət Vergi Xidmətinin uçotda olduqları yerli vergi orqanlarına müraciət edə bilərlər.

Maliyyə dəstəyi almış vergiödəyicilərinin mütəmadi olaraq yenilənən siyahısı *vergi.nakhchivan.az* internet səhifəsində yerləşdirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Torpaq sahələrinin plana alınması və xəritələşdirilməsi davam etdirilir



Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan səmərəli istifadəyə nəzarət Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən cari ilin may ayında da diqqətdə saxlanılmışdır. Torpaqların elektron uçotunun aparılması məqsədilə Sədərək rayonunda planaalma işləri davam etdirilmiş, ay ərzində 1273 daşınmaz əmlak obyekti plana alınmışdır. Şərur rayonunun 23 bələdiyyəsinin xəritəsi və yerquruluşu sənədləri qovluğu hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Duzdağ duz mədənlərinin ərazisi xəritələşdirilmiş, hazırlanmış xəritə və planlar nəşr olunmuşdur. Muxtar respublikanın bütün şəhər və rayonları üzrə suvarılan torpaq sahələrinin xəritələri hazırlanmışdır. Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Babək rayonunun Cəhri kəndində monitorinqlər davam etdirilmiş, aşkar olunan nöqsanların aradan qaldırılması istiqamətində iş aparılmışdır.

May ayında 415 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 370 texniki sənəd hazırlanmış, yeni yaranmış 13 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 43 torpaq sahəsinin planölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 7 yaşayış məntəqəsində 47 vətəndaşın müraciətinə baxılmışdır. 9 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

***2020-ci ilin may ayında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və struktur bölmələrinin mütəxəssisləri kənd təsərrüfatının bütün sahələrində yüksək məhsuldarlığın əldə olunması üçün maarifləndirici müşavirələr, tarla seminarları keçirmiş, təsərrüfat sahibləri ilə fərdi qaydada söhbətlər aparmışlar. Nazirlik əməkdaşları tərəfindən muxtar respublikada keçirilən seminar-müşavirə və fərdi görüşlərdə yaz işlərinin əkin atlaslarına uyğun optimal müddətdə aparılması, bostan-tərəvəz əkini zamanı, əsasən, yerli və yerli şəraitə uyğunlaşan məhsuldar toxumlardan istifadə edilməsi tövsiyə olunmuşdur. Əkinlərdə xəstəlik və zərərvericilərin qarşısının alınmasında aqrotexniki mübarizənin tətbiq olunmasına üstünlük verilməsi qeyd edilmişdir.***

## Aqrar sahənin inkişafı diqqətdə saxlanılır



Ümumilikdə, muxtar respublika üzrə 475 hektar yonca sahəsində fitonomus zərərvericisinə, 966 hektar taxıl və cavan meyvə bağlarında siçan və siçanabənzər gəmiricilərə, 66 hektar kartof sahəsində kolorado kartof böcəyinə, 7321 hektar taxıl sahəsində alaq otlarına, eləcə də 16 hektar sahəni əhatə edən bəzək bitkilərinin zərərverici və xəstəliklərinə qarşı kimyəvi mübarizə aparılmışdır.

Taxıl biçini kampaniyasına hazırlıqla bağlı Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri ilə birlikdə muxtar respublikanın rayonlarında taxılbiçən kombayn sahibkarları ilə fərdi qaydada söhbətlər aparılmış, biçində iştirak edəcək kombaynların texniki vəziyyəti və sayı müəyyən edilmişdir.

"Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı başçılarının gətirdikləri torpaq nümunələri analiz olunaraq tərkibindəki qida maddələrinin miqdarı barədə məlumatların verilməsi işləri davam etdirilmişdir. Toxumçuluq və bitkilərin mühafizəsi idarəsinə müraciət edən 91 ailə təsərrüfatı başçısı və fermerlərin istixana təsərrüfatlarına, meyvə və üzüm bağlarına baxış keçirilmiş, tələb olunan mübarizə tədbirləri haqqında məsləhət və tövsiyələr verilmişdir. Toxumçuluq təsərrüfatları və fermerlər tərəfindən laboratoriyaya gətirilən toxumlar analizdən keçirilmiş və nəticələrlə bağlı analiz aktı təqdim olunmuşdur.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın və "Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı ilə bağlı tədbirlər planı"nın müvafiq bəndlərinin icrası ilə əlaqədar maarifləndirici tədbirlər həyata keçirilmişdir. "Naxçıvan Muxtar Respublikasında damazlıq heyvandarlığın inkişafının əsasları" adlı kitab və bütün rayonların yaşayış məntəqələri üzrə "Heyvan cinslərinin rayonlaşdırılmasının atlası" hazırlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## 34 kombayn taxıl biçini üçün saz vəziyyətə gətirilib

Qarşıdan strateji məhsul olan taxılın biçin dövrü gəlir. Babək rayonunun torpaq mülkiyyətçiləri ötən ilin payızından bəri çəkdikləri zəhmətin bəhrəsini görməyə hazırlaşırlar. Əkin sahələri müasir suvarma metodları ilə suvarılıb, gübrələnib, zərərvericilərə qarşı dərmanlama işləri aparılıb. Bu məqamda qeyd etmək yerinə düşər ki, rayonda ötən ilin payızında bu ilin məhsulu üçün rekord həddə taxıl əkini aparılıb. Belə ki, 12 min hektara yaxın taxıl sahəsindən yüksək məhsuldarlıq gözlənilir. Artıq yaxın günlərdə biçin kampaniyasına start veriləcək. Bunun üçün rayonda 34 kombayn saz vəziyyətə gətirilib.



Babək Rayon İcra Hakimiyyətindən aldığımız məlumatda bildirilir ki, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə güzəştli şərtlərlə alınan kombaynlar biçin prosesində istifadə olunacaq texnikalar içərisində çoxluq təşkil edir. Qeyd edək ki, gün ərzində 30-35 hektar taxılın sahəsində biçin apara bilən əvvəlki texnikalar ilə müqayisədə gətirilən müasir kombaynların iş əmsalı daha yüksəkdir. Bu da taxılın itkisiz və optimal müddətdə biçilib götürülməsinə daha əlverişli şərait yaradır. Biçin kampaniyası ərəfəsində həmin texnikalara hərtərəfli baxış keçirilib və onların texniki vəziyyəti yoxlanılıb.

Qeyd edək ki, biçin kampaniyasında mühüm işlərdən biri də yanğın təhlükəsizliyinə əməl olunmasıdır. Bunun üçün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yerli qurumu tərəfindən kəndlərdə torpaq mülkiyyətçiləri, icra nümayəndələri, mexanizatorlar və bələdiyyələrin iştirakı ilə görüşlər keçirilib, biçində iştirak edəcək şəxslər yanğın təhlükəsizliyinə qarşı maarifləndirilib. Bir sözlə, taxıl biçininə hazırlıq tam başa çatdırılıb və bu iş yaxın günlərdə ilk olaraq rayonun Şıxmahmud və Nehrəm kəndlərində başlayacaq.

**Muxtar RZAZADƏ**



*5 iyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür*

# Ekoloji tarazlığın qorunması bəşəriyyətin gələcəyinə xidmət edir

*Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1972-ci il 15 dekabr tarixli Qərarına əsasən iyun ayının 5-i Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü elan edilmişdir. Həmin gün dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da hər il qeyd olunur.*

Azərbaycanda ekologiyaya dövlət səviyyəsində münasibətin göstərilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərində ulu öndərin rəhbərliyi ilə ekoloji problemlərin həlli istiqamətində mühüm qərarlar qəbul edilmiş, ictimaiyyətin diqqəti ətraf mühitin mühafizəsinə yönəldilmiş, geniş yaşıllaşdırma tədbirləri aparılmışdır. Dahi rəhbər demişdir: ***"Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genofondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür".*** Ümummilli lider ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da ekoloji problemlərin həlli diqqətdə saxlanılmış, bu sahədə dövlət siyasətini tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur.

Ulu öndərimiz tərəfindən müəyyənləşdirilmiş ekoloji siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının sərəncamı ilə 2010-cu ilin ölkəmizdə "Ekologiya ili"elan edilməsi, həmin ildən başlayaraq beynəlxalq ekologiya sərgilərinin keçirilməsi ekoloji problemlərin həllinə göstərilən diqqətin daha bir ifadəsidir. Azərbaycan planetin mövcud təbii sərvətlərindən, bitki və heyvan ehtiyatlarından, sudan, atmosferdən, torpaqdan səmərəli istifadə edilməsi, qorunması və bərpası məqsədilə 20-dən çox ekoloji konvensiyaya qoşulmuşdur.

Ulu öndərin muxtar respublikaya rəhbərliyi dövründə əsasını qoyduğu təbiəti mühafizə tədbirləri bu gün muxtar respublikamızda da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə füsunkar təbiətə malik diyarımızda əlverişli ekoloji mühitin yaradılması məqsədilə Dövlət proqramları qəbul edilmiş, ardıcıl tədbirlər görülmüşdür. Muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir. Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun Qafqaz Təmsilçiliyinin muxtar respublikamızda təbiəti mühafizə sahəsində görülən işləri çox yüksək qiymətləndirməsi bunu bir daha təsdiq edir.





Muxtar respublika ərazisində təbii-iqlim və torpaq xüsusiyyətləri nəzərə alınaraq yaşıllıqların qorunması və artırılmasına xüsusi diqqət yetirilir. Meşələrin qorunması ilə yanaşı, yeni yaşıllıqların salınması istiqamətində də mühüm işlər görülür. Bu tədbirlərin əsası ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə qoyulmuşdur. Həmin illərdə blokada çətinliklərinə baxmayaraq, ümummilli liderimizin səyi nəticəsində muxtar respublikada iməciliklərin keçirilməsinə başlanılmış, təbiətin, yaşıllığın qorunması və bərpası işlərinə diqqət artırılmışdır. Son illər muxtar respublikada yaşıllıqların sahəsi 10 dəfədən çox artmışdır. Muxtar respublikamızda aparılan yaşıllaşdırma tədbirlərində ekoloji əhəmiyyətlə bərabər, iqtisadi səmərəlilik də əsas götürülərək meyvə bağlarının salınması da diqqətdə saxlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq muxtar respublika ərazisində min hektarlarla meyvə bağları salınmışdır. Ərazilərin torpaq ehtiyatlarının münbitliyinin qorunması, relyef xüsusiyyətləri nəzərə alınaraq və sudan səmərəli istifadə edilməsi məqsədilə damcı yolu ilə suvarma sistemləri qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ekoloji təhlükəsizliyin təmin olunmasında meşə fondunun zənginləşdirilməsi mühüm rol oynayır. Son dövrlər muxtar respublikanın artan sənaye potensialı, yeni istehsal sahələrinin yaradılması həyata keçirilən ekoloji siyasətin əsas istiqaməti kimi yaşıllaşdırma tədbirlərinin əhəmiyyətini daha da artırır".***

Yaşıllaşdırma tədbirlərinin yalnız kənd təsərrüfatı əkinləri üçün yararsız olan ərazilərdə aparılması torpaqların münbitliyinin bərpa olunmasında da xüsusi əmələ çevrilmişdir. Hazırda muxtar respublikanın ümumi ərazisinin 20 faizə qədəri yaşıllıqlarla örtülmüşdür. Müqayisə üçün bildirək ki, ötən əsrin 90-cı illərinin əvvəllərində bu göstərici yalnız 0,6 faizə bərabər idi. İnkişaf etmiş ölkələrdə bu göstərici ümumi ərazilərin yalnız 10-15 faizini təşkil edir.

Muxtar respublikanın coğrafi mövqeyi, relyefi, təbii-iqlim və torpaq xüsusiyyətləri, təbii su potensialı nəzərə alınaraq ən mühüm ekoloji tədbir kimi yaşıllaşdırma, meşəsalma və meşəbərpa işlərinə də ayrıca diqqət yetirilir, xüsusi mühafizə olunan təbiət obyektləri yaradılır. Qeyd edək ki, ötən illərdə görülən işlər sayəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin coğrafiyası xeyli genişlənmişdir. 1969-cu ildə Ordubad Dövlət Təbiət Yasaqlığı, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Bundan başqa, ölkə başçısının 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması təbiəti mühafizə ilə yanaşı, ekoturizmin inkişafına da əlverişli şərait yaratmışdır.



Naxçıvan təbiətinin zənginliyi burada nadir bitki və heyvan növlərinin mövcudluğuna imkan verir. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, ekoloji maarifləndirmə tədbirlərinin keçirilməsi muxtar respublikanın fauna və flora müxtəlifliyinin qorunmasına və zənginləşdirilməsinə öz müsbət təsirini göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı Kitab" çap edilmişdir. Xüsusi gözəlliyi ilə seçilən təbiət guşələri, yüzillik yaşı olan ağaclar, şəlalələr, mağaralar, elmi, təcrübi, tarixi əhəmiyyətə malik obyektlər, təbiət kompleksləri təbiət abidələri kimi qeydiyyata alınaraq pasportlaşdırılmışdır. Müasir dünyamızda turizmin ən çox inkişaf sahəsi olan ekoturizmin və kənd yaşıl turizmin əsasını da məhz bu təbii zənginliklər təşkil edir. Bu baxımdan təbiət abidələrinin qorunması həm də mühüm iqtisadi əhəmiyyət malikdir. 1995-ci illə müqayisədə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 4 dəfəyə yaxın çoxalmışdır.

Ətraf mühit və təbii sərvətlərin qorunmasında ekoloji maarifləndirmənin mühüm rolu vardır. Ona görə də muxtar respublikada insanların ətraf mühit və ekoloji təhlükəsizlik sahəsində bilik və bacarıqlarının artırılması, gənc nəslin ekoloji mədəniyyət səviyyəsinin təkmilləşdirilməsi və ətraf mühitin birgə mühafizəsinə cəlb olunması diqqət mərkəzində saxlanılır, bu məqsədlə ardıcıl tədbirlər görülür.

Muxtar respublikanın fauna ehtiyatlarının, quşların, məməli heyvanların inventarlaşması, sayının aparılması ildə iki dəfə həyata keçirilir. Milli park, yasaqlıq və digər təbiət ərazilərində aparılmış inventarlaşma, ümumilikdə, fauna ehtiyatlarının ayrı-ayrı növlər üzrə müxtəlif artım tempini müəyyən etmişdir. Belə ki, nadir növlərdən olan muflon, bezoar dağ keçiləri muxtar respublika ərazisində xeyli artmışdır. Onlar sürü şəklində Şahbuz, Şərur, Ordubad və Culfa rayonlarının ərazisində müşahidə olunur. Bu heyvanların artımı dünya təbiətinin nadir növlərindən olan bəbir ailəsinin yem bazası olduğundan onların yaşam arealı genişlənmişdir. Hazırda bəbirlərin 9 fərdinin yaşaması qeydə alınmışdır. Ümumilikdə, quşların sayında 7-10 faiz, məməli heyvanların sayında 10-12 faiz artım müşahidə olunmuşdur.





Muxtar respublika ərazisinə daxil olan çaylarda suların mövcud vəziyyətinin nəzarətdə saxlanılması məqsədilə 2019-cu ildə Sədərək Rayon Su Monitorinq Laboratoriyası istifadəyə verilmiş və müasirtipli cihazlarla təmin olunmuşdur. Son illərdə muxtar respublika ərazisində hidrometeoroloji fəaliyyətin təkmilləşdirilməsi məqsədilə Sədərək, Culfa və Naxçıvan meteoroloji stansiyalarında hava məlumatlarının alınması üçün müasirtipli avadanlıqlar quraşdırılmışdır. Bu cihazlar vasitəsilə lazım olan meteoroloji məlumatlar GPRS vasitəsilə mərkəzləşdirilmiş serverə ötürülür və arxivləşdirilir.

Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan təbii sərvətlərin öyrənilməsi, ehtiyatın müəyyənləşdirilməsi məqsədilə kəşfiyyat işlərinin aparılması da diqqətdə saxlanılır. Bu sahədə fəaliyyətin günün tələbləri səviyyəsində qurulması məqsədilə Culfa şəhərində müasir tələblərə cavab verən geoloji baza tikilərək geoloqların istifadəsinə verilmişdir. Geoloji bazada muxtar respublikanın mineral xammal bazasını təbliğ edən geoloji muzey də qurulmuşdur. Burada istifadəyə verilən və müasir laborator avadanlıqlarla təchiz edilmiş geoloji tədqiqat laboratoriyası qazıntılar zamanı əldə edilmiş süxur nümunələrinin ölkəmizdən kənara aparmadan burada öyrənilməsinə imkan verir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin səmərəli qurulması, müasir dövrün tələblərinə uyğunlaşdırılaraq təkmilləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yeni Əsasnaməsi təsdiq edilmişdir. Nazirlik Əsasnaməyə uyğun olaraq bundan sonra da təbiətin mühafizəsi, ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması, biomüxtəlifliyin zənginləşdirilməsi, təbii sərvətlərdən məqsədyönlü və səmərəli istifadəyə nəzarətin artırılması və digər ekoloji məsələlərin həlli istiqamətində fəaliyyətini davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## "İlandağ" geoparkı ilə bağlı yaradılmış işçi qrupunun onlayn iclası keçirilib

***AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti və Naxçıvan Dövlət Universitetinin mütəxəssislərindən ibarət "İlandağ" geoparkı ilə bağlı yaradılmış işçi qrupunun onlayn iclası keçirilib.***

İclasda cari ildə görülən işlər, həyata keçirilən ekspedisiyaların nəticələri və qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb.

Tədbirdə "İlandağ" geoparkının sərhədlərinin dəqiqləşdirilməsi, geoloji, geomorfoloji, landşaft, ekoloji, biomüxtəliflik xəritələrinin hazırlanması, tarix-memarlıq və arxeoloji obyektlər barədə kompüter məlumat bazasının yaradılması, həmçinin ərazidə infrastruktur obyektlərinin müvafiq tələblərə uyğun yenidən qurulmasına dair təkliflərin hazırlanması müzakirə olunub və lazımi tapşırıqlar verilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə AMEA rəhbərliyi tərəfindən 17 dekabr 2018-ci il tarixdə ünvanlanan məktubda UNESCO səviyyəli "İlandağ" geoparkının yaradılması və onun Qlobal Geoparklar Sisteminə və Ümumdünya İrsi Siyahısına salınmasına göstərilən müsbət münasibətə görə minnətdarlıq edilib. Ali Məclisin Sədri həmin məktubu Naxçıvan Bölməsinə göndərərək geoparkın yaradılması ilə bağlı lazımi işlərin həyata keçirilməsini tapşırıb.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***



# Şahtaxtı kəndindəki Şərq hamamının bərpası mədəni irsimizin yaşadılmasına xidmət edir

***Hamamlar qədim zamanlardan xalqımızın məişətində yer tutub. Tarixə nəzər salsaq, görərik ki, hamam binaları Azərbaycanın şəhər infrastrukturunda həmişə ön planda olub. Şəhərlərin daxilində məscid, bazar, karvansara, su anbarları ilə eyni kompleksdə hamamlar da tikilib. Mənbələrdə XIII əsrdə Azərbaycan şəhərlərinin hər bir darvazasının yanında çaharbazar, karvansara və hamamların olması haqqında məlumatlar var. Həmçinin orta əsrlər dövründə müsəlman ölkələrinə aylarla yol qət edərək gələn səyyah və tacirlərin hamamlarda yuyunub paklandıqdan sonra şəhər-qalaların içərisinə daxil olmasına icazə verilməsi haqqında mənbələrin məlumatı hamamların ictimai həyatda oynadığı rolu əks etdirir. Mənbələrdəki məlumatlar, əsasən, şəhər hamamları ilə bağlı olsa da, muxtar respublikamızın bir çox yaşayış məntəqələrində, o cümlədən Şahtaxtı, Xok, Yengicə və digər kəndlərində vaxtilə fəaliyyət göstərmiş hamamların günümüzədək gəlib çatan qalıqları sübut edir ki, belə yerlər, sadəcə, şəhər həyatında deyil, kəndlərdə də insanların həyat tərzinin vacib elementlərindən olub.***

Təmizlik, paklıq ünvanı olan hamamlar, həm də insanların söhbətləşdiyi, istirahət etdiyi məkanlar kimi tanınıb. Məişət mədəniyyətimizdə məxsusi yeri olan hamamlar, eyni zamanda hamam mədəniyyətinin formalaşmasına öz töhfəsini verib. Digər tərəfdən belə tikililər xalqımızın mədəni tarixini özündə yaşatmaqla, maddi mədəniyyət abidəsi və memarlıq nümunəsi kimi də əhəmiyyətlidir. Hazırda Naxçıvanda Şərq üslubunda tikilmiş 10-a yaxın tarixi hamam qeydiyyata alınıb. İndiyədək Naxçıvan və Ordubad şəhərlərində, Şərur rayonunun Yengicə kəndindəki tarixi hamamlar bərpa olunub. Bu günlərdə isə Kəngərli rayonunun Şahtaxtı kəndindəki Şərq hamamı yenidən qurularaq istifadəyə verilib.

Şahtaxtı hamamı düzbucaqlı formada olub, ikigünbəzlidir. Günbəzlərinin diametri 5 metrdir. Tavan hissədə hamamın işıqlandırılması üçün bacalar qoyulub. Hamam binası yarımyeraltı formada inşa olunmuşdur ki, bu da daxildə istiliyin saxlanılmasına və su təchizatının əlverişli olmasına imkan vermişdir. Ümumi sahəsi 215 kvadratmetr olan Şərq hamamını şahtaxtılı İsa Sultan Şahtaxtinski tikdirmişdir. 2020-ci il mayın 27-də obyektdə aparılmış bərpa işləri ilə tanış olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:

***“Şahtaxtı kəndindəki Şərq hamamı uzun illər bu ərazidə yaşayan insanların sağlamlığına və təmizliyinə xidmət edib. Hamamın tarixi abidə kimi bərpası vaxtilə onu tikənlərin də xatirəsinin yad edilməsidir. Bu abidə xalqımızın mədəniyyətinin və təfəkkürünün göstəricisi olmaqla yanaşı, həm də muxtar respublikada bioqazla qızdırılan ilk hamam olmuşdur. Hamamı tikdirən İsa Sultan Şahtaxtinski Azərbaycanın qədim İrəvan şəhərində anadan olmasına baxmayaraq, sonradan ailəsi Şahtaxtı kəndinə köçmüşdür. O, Tiflisdə realnı gimnaziyanı bitirmiş, Sankt-Peterburqda təbiət elmləri üzrə təhsil almışdır. İsa Sultan Şahtaxtinski təbiət elmlərini dərindən bildiyi üçün bioqazla qızdırılan ilk hamamı da Şahtaxtı kəndində quraraq əhalinin istifadəsinə vermişdir. Ötən əsrin 80-ci illərinə qədər fəaliyyət göstərən hamam sonradan dağıntılara məruz qalmışdır. Lakin muxtar respublikada tarixi-mədəni irsin qorunması sahəsində görülən işlərin davamı olaraq hamam abidə kimi qeydiyyata alınmış və 2019-cu ildən etibarən bərpa olunmuşdur”.***

Qeyd edək ki, muxtar respublikamızda tarixi-mədəni irsə göstərilən böyük dövlət qayğısı nəticəsində qədim diyarımızda yüzlərlə tarixi abidə qeydiyyata alınaraq pasportlaşdırılıb, bu abidələrin bərpası və yenidən qurulması diqqətdə saxlanılıb. Şahtaxtı kəndindəki Şərq hamamında da bərpa işləri yüksək səviyyədə aparılaraq ona ikinci həyat verilib. Bərpa işləri zamanı hamam binası xaricdən travertin daşlarla, daxili divarları, tağ və günbəzlər qədimnövlü kərpiclə, binanın dam örtüyü və günbəzlərin üst qatı isə alüminium vərəqlərlə üzlənib. Burada qadın gözəllik salonu, dərzi, rəssam və fotoqraf üçün otaqlar ayrılıb. Bu xidmət sahələrində 4 nəfər işlə təmin olunub. Tarixi hamam binasında xidmət sahələrinin yaradılması bir tərəfdən bu abidənin qorunub saxlanılmasına, təmizliyinə, abadlığına xidmət edirsə, digər tərəfdən burada işləyən kənd sakinlərinin məşğulluğuna öz töhfəsini verir. Eyni zamanda bu xidmət sahələri onlardan istifadə edənlərin davamlı olaraq binaya gediş-gəlişini təmin edir ki, bu da obyektin işləkliyi ilə yanaşı, həmin mədəniyyət müəssisəsinə yolu düşənlərin sayını da artırır.



Hamamın əvvəlki görünüşü





Xatırladaq ki, muxtar diyarımızın qədim yurd yerlərindən biri olan Şahtaxtı kəndi həm yerləşdiyi strateji mövqeyi, həm də milli tariximizin, elm və mədəniyyətimizin inkişafına böyük töhfələr vermiş görkəmli şəxsiyyətləri ilə tanınır. Son illərdə həyata keçirilən quruculuq tədbirləri nəticəsində burada yeni sosial obyektlər tikilib, kənddaxili yollar abadlaşdırılıb, məşhur Şahtaxtinskilərin ev-muzeyi yaradılıb. Uzun illər kənd sakinlərinə xidmət göstərmiş Şərq hamamının bərpası isə kəndin turizm potensialının artırılmasına yeni bir töhfədir.

Təbii ki, görülmüş işlər kənd sakinləri tərəfindən də razılıqla qarşılanır. Əslən Şahtaxtı kəndindən olan, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov yeni bərpa olunmuş Şərq hamamı haqqında bunları dedi: “Şahtaxtı kəndindəki Şərq hamamı türk-islam mədəniyyəti abidələrinin gözəl nümunələrindəndir. Tikintisi zamanı çatma tağlara və günbəzlərə yer verilməsi onun memarlıq formasını daha da zənginləşdirmişdir. Məlum olduğu kimi, hamam ötən əsrin 80-ci illərindən sonra fəaliyyətini dayandırdığından baxımsız vəziyyətdə qalmış, bəzi hissələri uçub-dağılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikamızda tarixi abidələrə göstərdiyi böyük qayğı sayəsində Şərq hamamı da tamamilə məhv olmaq təhlükəsindən xilas olmuşdur. Hamamın yüksək səviyyədə bərpa olunması isə tarixi abidələrimizə, milli mədəni irsimizə verilən dəyərin nəticəsidir.

Şahtaxtı kənd sakini, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Həmidə Mirzəyevanın dediklərindən: “Kəndimizdəki Şərq hamamı vaxtilə bütün kənd sakinlərinin istifadə etdiyi məkanlardan olub. Bu tarixi abidə xalqımızın məişət mədəniyyətinə, təmizliyə, paklığa necə önəm verdiyini göstərir. Ancaq etiraf etmək lazımdır ki, bu gözəl abidənin yaşadılması Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə mümkün oldu. Buna görə də bütün kənd sakinləri, ziyalıları adından dövlətimizə minnətdarlığımızı bildiririk”.



Hamamın əvvəlki görünüşü

***Bəli, muxtar respublika ərazisində mövcud olan qədim hamamlar uzaq keçmişdən onların xalqımızın sosial həyatının bir elementi olduğunu göstərir. Bu abidələrin qorunub saxlanılması, yaşadılması isə tarixi və mədəni irsimizin öyrədilməsi, təbliği baxımından böyük əhəmiyyət daşıyır. Ümid edirik ki, Naxçıvandakı digər çoxsaylı nadir memarlıq nümunələri, xüsusilə də buzxana binaları kimi, qədim Şərq hamamları da qədim diyarımızın tarixi və zəngin mədəniyyəti ilə maraqlanan həm yerli, həm də əcnəbi tədqiqatçıların maraq obyektinə çevriləcək.***

**Səbuhi HƏSƏNOV**

## Onlayn fəaliyyətin əhatə dairəsi genişləndirilib



May ayında onlayn formada xidmət göstərilməsi Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və tabe müəssisələrin əsas fəaliyyət istiqamətlərindən olmuşdur. Ötən ay Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində, Cəmşid Naxçıvanski Muzeyində, Beynəlxalq Muzeylər Günü münasibətilə isə Naxçıvan Dövlət Xalça Muzeyində keçirilən onlayn ekskursiyalar Naxçıvan televiziyasında, eləcə də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin rəsmi internet saytında və “Instagram” səhifəsində canlı olaraq yayımlanmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü və 28 May – Respublika Günü münasibətilə Naxçıvan Dövlət Filarmoniyasının Kamera və Estrada orkestrlərinin, həmçinin Naxçıvan Dövlət Filarmoniyasının solistləri, gənc vokalist İlkin Abdullayevin və gənc skripka ifaçısı Cahangir Qurbanovun onlayn konsertləri təşkil olunmuşdur.

Ötən ay Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı Aleksandr Sergeyeviç Qriboyedovun eyniadlı əsəri əsasında hazırlanmış “Ağıldan bəla” tamaşasının ilk dəfə olaraq onlayn premyerasını və Cəfər Cabbarlının “Aydın” pyesi əsasında hazırlanmış eyniadlı tamaşadan bir hissəni nümayiş etdirmişdir. Naxçıvan teatrının yaradılmasının 137-ci ildönümü münasibətilə onlayn tədbir keçirilmiş, Xalq yazıçısı Elçin Əfəndiyevin “Teleskop” əsəri əsasında hazırlanmış eyniadlı tamaşa onlayn formada teatrsevərlərə təqdim olunmuşdur. Ötən dövrdə, həmçinin yazıçı-dramaturq Xaqani Əliyevin “Ehsan xan Kəngərli” tarixi dramı onlayn formada təqdim edilmişdir. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında da ötən ay balaca teatrsevərlər üçün “Buratino”, “Qoğalın sərgüzəşti” və “Ələddinin sehrli çırağı” tamaşaları onlayn nümayiş olunmuşdur.

May ayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Bir neçə dəqiqədə mədəniyyət” adlı videoçarx, “Milli ornamentlərimiz rəsm əsərlərində” adlı rəsm və “Milli dəyərlərimiz düşüncəmizdə” adlı esse müsabiqələri elan olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərur yallıları haqqında” 2018-ci il 24 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar “Yallılar dünəndən bu günə” kitabının çapa hazırlanması işi davam etdirilmiş, yallıların çəkilişi aparılaraq, bu sənətin təbliği ilə əlaqədar paylaşımlar olmuşdur.

Muxtar respublikanın muzeylərinə ötən ay da onlayn ekskursiyalar davam etdirilmiş, ay ərzində əlamətdar və tarixi günlər, eləcə də tanınmış şəxsiyyətlərin doğum və anım günləri ilə bağlı muzeylərin sosial şəbəkə hesablarında paylaşımlar olmuşdur. Muxtar respublikanın kitabxanaları da may ayında oxuculara onlayn fəaliyyət göstərmişdir. Belə ki, Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illik yubileyi münasibətilə “Əbdürrəhim bəy Haqverdiyev – 150” adlı onlayn konfrans keçirilmiş, Cek Londonun “Həyat eşqi” əsərinin onlayn müzakirəsi təşkil olunmuş və 564 oxucuya səyyar kitabxana xidməti göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan kitablarla bağlı, ümumilikdə, 45 audio-videomaterial hazırlanmışdır. Onlayn tədbirlər Naxçıvan Musiqi Kolleci, həmçinin uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün də davam etdirilmiş, tələbə və şagirdlərin iştirakı ilə onlayn ustad dərsləri və metodik kurslar təşkil olunmuşdur.

May ayında Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələrin işçilərindən 10-u Prezident mükafatına layiq görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Gənc rəssamlar üçün onlayn seminar



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Təsviri incəsənət və rəngkarlıq ixtisası tələbələrinə onlayn seminar keçirilib. Seminarı giriş sözü ilə İncəsənət fakültəsinin dekanı, Əməkdar rəssam Cavid İsmayılov açaraq keçirilən tədbirlərin önəmini qeyd edib. Rəssam-tələbələrin gələcək təcrübələrinin möhkəmlənməsində birgə əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Azərbaycan Respublikasının Əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva tələbələrin suallarını cavablandırıb. Gələcəkdə tələbələrin fərdi sərgilərinin təşkil olunması və Azərbaycanın tanınmış rəssamlarının əsərləri ilə birgə sərgilənməsi, çəkdikləri rəsm əsərlərinin kataloqlarda çap olunması ilə bağlı müzakirələr aparılıb.

Seminarda müəllif və tələbələrin sualları cavablandırılıb.

**Telli MUSTAFAYEVA**



# Təbiət onu sevənlərindir



*İşimizə və gündəlik həyatımıza aludə olduğumuzdan bəzən ətraf mühitə ciddi nəzər sala bilmirik. Amma hərdən təbiəti seyr etmək və dinləmək lazımdır. Adi bir su şırıltısı, yarpaqların xəfif titrəyişi, qarışıq fikir və düşüncələrimizi alıb götürən həzin meh bizi xəyalən çox uzaqlara aparır. Əzəmətli dağlar, mavi səma, gözgütək göllər, gur səsi ilə hayqıran şəlalələr, könüloxşayan yamyaşıl düzlər insana gözəl duyğular pıçıldayır. Təbiətin xoş avazı ən gözəl melodiya kimi səslənir qulağımızda. Bizi əhatə edən ətraf aləmin, gözəl təbiət mənzərələrinin seyrinə çıxdıqca bu əsrarəngiz gözəlliklər qarşısında heyrətini gizlədə bilmirsən. Şair qələmi, rəssam fırçası, bəstəkar istedadı acizdir bunları vəsf etmək üçün...*

Dörd fəslin heç biri arasında ayrıseçkilik salmayaraq hər birinə özünəməxsus gözəllikləri bəxş edərək biz insanlara təqdim edən təbiətə son dərəcə həssas yanaşmalıyıq. Çünki o, ana qayğısı ilə yanaşır bütün varlıqlara. Məhz buna görə də ona "Ana təbiət" deyirik. Uzağa getməyək. Elə götürək bizim təbiət gözəli Naxçıvanımızın gözoxşayan mənzərələrini. Bütün fəsillərdə özünəməxsus gözəlliyi var diyarımızın. Ulu Tanrı buradan nəyi əsirgəyib ki!? Naxçıvanın hansı tərəfinə üz tutsan, nadir, özünəməxsus, fərqli və rəngarəng təbiət mənzərələri və insana həyat bəxş edən zənginliklərlə rastlaşırsan. Hətta çılpaq Duzdağ təpələrinin belə, özünəməxsus gözəlliyi var. Bu mənada, düşünürəm ki, quşlar bu dünyada ən xoşbəxt canlılardır. Çünki səmadan Duzdağın minlərlə metr uzanan mənzərəsini izləmək imkanımız





olsa, min bir rəngin çalarını eyni anda görə bilərik. Hələ bu təpəciklərin yüzlərlə metr dərinliklərində hifz etdiyi zənginlikləri demirəm. Bu bəmbəyaz zənginlik isə təbiətin bizə bəxş etdiyi ayrıca bir sərvətdir. Ağzımızın dadı, sağlamlığımızın qarantı...

Dağlarının, qayalarının döşünə səpələnmiş rəngarəng çiçəkləri ilə dörd fəsli eyni anda yaşadan Göygöl, təmiz havası və bumbuz bulaqları ilə Batabat, ətrafa narın-narın su çiləyən Pəzməri şəlaləsi, minlərlə flora və fauna nümunələrinə qucaq açan park, qoruq və yasaqlıqlar Naxçıvanımızın əsl təbiət möcüzəsidir. Bu gözəl təbiət mənzərələrinin daim var olmasına səbəbkar isə bizim özümüzük. Çünki təbiət onu sevənlərindir. Ötən əsrin sonlarındakı ağrılı-acılı mənzərələri bir anlıq göz önünə gətirin. Canlı təbiətə laqeyd münasibət Naxçıvan təbiətini məhvə sürükləyirdi. Kəsilmiş ağaclar, plansız şəkildə ovlanmış heyvanlar nadir fauna və flora nümunələrini məhvə məhkum etmişdi. Oksigen mənbəyimizin cəmi 0,6 faiz təşkil edəcək dərəcədə tükənməsi, əslində, bizim də həyatımızı təhlükə altına almışdı. Nə yaxşı ki, zamanında həyəcan təbili çalıb təbiətimizin harayına yetdik. Hamımız bir olub hər yerdə ağac əkdik, meyvə bağları və parklar saldıq. Ova qadağalar qoyub, qoruqlar, yasaqlıqlar yaratdıq. Bir sözlə, biz təbiəti yaşatdıq. Biz yaşatdıqca, o da bizə xoş güzəran və sağlam həyat bəxş etdi.

İndi mənzərə tamam dəyişib. Təbiətin ən gözəl rəngi olan yaşıllıqlar muxtar respublikamızın füsunkar hüsnünə gözəllik bəxş edir. Diyarımızın hər yerində insanların zövqünü oxşayan, baxdıqca baxmaq istədiyimiz ağacların, gül kollarının yamyaşıl, al-əlvan parlaq rəngləri son dərəcə heyrətamiz və sevimli mənzərə yaradır. Hər mövsümə uyğun flora nümunələrinin, qışda şam ağacları və qar çiçəyinin, yazda bənövşə və "utancaq" lalələrin, yayda qızılgüllərin, payızda isə bütün ağacların özünəməxsus görüntüsü insanı valeh edir. Şəhərimizin küçələrində, parklarında, istirahət mərkəzlərində olan gözəllik nümunələri öz təravəti, gözəlliyi ilə şəhər sakinlərinin və şəhərə gələn qonaqların gözünü-könlünü oxşayır.

Yazımın bu yerində bir haşiyəyə çıxmaq istərdim... Dünyanı bürümüş pandemiya bəzi məqamları üzə çıxardı. Xəstəlik təhlükəsi səbəbi ilə insanoğlu evinə çəkildikcə, necə deyərlər, təbiət, sanki "özünə gəldi". İki həftə içində Çindəki hava çirklənməsinin ciddi şəkildə azalması müşahidə olundu. Alimlərin etirafına əsasən Çindəki bu nisbi ekoloji təmizlik bir neçə gün ərzində 80 minə yaxın insanın həyatını qurtardı. İnsanlar alışmadığı xoş təbii mənzərələrlə qarşılaşdılar. Dünyanın bir çox ərazilərini tərk etmiş nadir heyvanlar yenidən "öz evləri"nə qayıtdılar. Yüz illərdən sonra "insanların dostu" olan delfinlər Venetsiya kanallarında yenidən göründü.

Deməli, təbiəti korlayan da, onu nizama salan da biz özümüzük. Gəlin müqayisə aparaq. Naxçıvanın təbiətinin blokadanın ilk illərində qarşılaşdığı vəziyyəti yada salaq. Bəli, minlərlə ağac kəsmişdik... Soyuqdan, şaxtadan qorunmaq üçün... Lakin onları təbiətə qaytarmaqda gecikmədik. Zəhmətkeş naxçıvanlılar vaxtında ulu öndərimizin ətrafında sıx birləşərək onun yaşıllaşdırma və təbiətə qayğı, "hər kəs bir ağac əkməlidir" çağırışına səs verdilər. Bununla da, vaxtilə təbiətə vurduqları ziyanı elə öz əlləri ilə də bərpa etdilər. 1995-ci ildən uğurla həyata keçirilən ekoloji siyasət, yerli sakinlərin kütləvi şəkildə iməciliklərdə iştirak etmələrinin ənənəyə çevrilməsi, xüsusi qorunan təbiət yasaqlıqlarının yaradılması, ova qadağaların qoyulması isə Naxçıvanda ətraf mühitin qorunmasını nümunəvi hala gətirib çıxarıb. Bu ənənəni davam etdirən ictimaiyyət nümayəndələri diyarımızın ayrı-ayrı ərazilərində, yaşayış məntəqələrində yeni yaşıllıq zolaqlarının yaradılmasında və həmçinin mövcud yaşıllıqların qorunub saxlanılmasında böyük coşqu və fəallıqla iştirak edirlər.



Məhz bunların nəticəsidir ki, bir zamanlar yalnız kitablarda fotolarını, efirlərdə görüntüsünü gördüyümüz bəbirlər, dağ keçiləri, muflonlar, flaminqolar indi bizimlə eyni təbiətdə yaşayır. Bu gün Ordubadın, Şahbuzun, Culfanın əksər ucqar bölgələrinə üz tutduğumuzda göz baxdıqca uzanan təbiətin qoynunda bu nadir heyvanlara rast gəlirik. Bu mənzərələrin şahidi olduqca bir daha əminlik yaranır ki, yaşadığımız dünya, təbiət, bizi əhatə edən ətraf mühit son dərəcə gözəl, zəngin və rəngarəngdir. Əslində, biz bu təbiətin ayrılmaz bir parçasıyıq. Rəngarəng bitkilərdən, vəhşi heyvanlardan kiçicik böcəklərə qədər saysız-hesabsız canlılarla əhatələnmişik. Bu təbiət təkcə bizim deyil, bütün canlılarındır. Təbiət üçün hər bir orqanizm lazımdır, insanlar üçün isə bütöv təbiət. Bu, Ulu Tanrının öz ilahi qüdrəti ilə yaratdığı bütün varlıqlar arasında bir bioloji asılılıq, həm də pozulmaz müqəddəs qanundur.

***P.S. Hörmətli oxucular, təbiətlə ətraf mühit bir-birini tamamlayır və insan həyatında ən vacib amillərdir. Bizi əhatə edən bu gözəllikləri qanunlara riayət etmək naminə deyil, gələcək nəsillərə gözəl bir mühit ərmağan etmək duyğusu ilə qorumalı, ona zərər verməməliyik. Unutmayaq ki, təbiət bizə miras deyil, əmanətdir. Gələcək nəsillərin sağlam su, təmiz hava, keyfiyyətli nemətlərlə qidalanmaları üçün təbiəti qorumalıyıq.***

**Gülcamal TAHİROVA**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci ildə kənd təsərrüfatı sahəsində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti, hüquqi və fiziki şəxslər tərəfindən yerinə yetiriləcək xidmətlərin qiymətləri" təsdiq edilmişdir. Göstərilən xidmətlərin qiymətləri aşağıdakılardır:

| S/№ | Xidmətin adı | Ölçü vahidi | Xidmətin qiyməti (manatla) |
|---|---|---|---|
| 1. | Şumlama | ha | 40 |
| 2. | Tapanlama (malalama) | ha | 15 |
| 3. | Arx açılması (mora) | ha | 10 |
| 4. | Taxıl səpini | ha | 17 |
| 5. | Taxıl səpini (şırımaçanla) | ha | 30 |
| 6. | Ot biçini (özüyeriyənlə) | ha | 30 |
| 7. | Ot biçini | ha | 28 |
| 8. | Taxıl biçini | ha | 40 |
| 9. | Qarğıdalı biçini | ha | 50 |
| 10. | Ot və küləşin preslənməsi | 1000 ədəd | 250 |
| 11. | Məhsulun daşınması | 15 km-dək | 21 |
| 12. | Gübrə səpini | ha | 10 |
| 13. | Kimyəvi mübarizə tədbirləri | ha | 15 |
| 14. | Bağçılıqda cərgələrarası kimyəvi mübarizə tədbirləri | ha | 30 |
| 15. | Dırmıqlama | ha | 16 |
| 16. | Çizel-şırım açma | ha | 19 |
| 17. | Kartof əkini | ha | 50 |
| 18. | Kartofun dibdoldurması | ha | 50 |
| 19. | Kartofun çıxarılması | ha | 50 |
| 20. | Kəsəkəzmə | ha | 50 |

## Naxçıvan Döyüş Şöhrəti Muzeyi yeni eksponatlarla zənginləşdirilib



Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan Naxçıvan Döyüş Şöhrəti Muzeyindəki eksponatların sırasına 3 yeni aviasiya texnikası daxil edilib. Beləliklə, 26 adda eksponatla fəaliyyətə başlayan muzeydə silah və texnika nümunələrinin sayı artırılaraq 40-a çatdırılıb. Yeni eksponatlardan 2 təlim təyyarəsi gənc pilotların hazırlanmasında istifadə olunub, döyüş-nəqliyyat vertolyotu isə Birinci Qarabağ müharibəsində şərəfli döyüş yolu keçib.

Pilotlar tərəfindən "Uçan tank", xarici görünüşünə görə "Timsah" adlandırılan "Mİ-24V" döyüş-nəqliyyat vertolyotundan döyüş əməliyyatları zamanı avtokarvanların və nəqliyyat helikopterlərinin müşahidəsi, düşmənin atəş vasitələrinin dəf edilməsi üçün istifadə edilirdi. Təknəfərlik "YAK-50" idman-aerobatik təlim və ikinəfərlik "YAK-52" idman-aerobatik təlim-məşq təyyarələrinin hazırda Azərbaycan Ordusunun sıralarında xidmət edən pilotların peşəkarlıqlarının artırılmasında böyük rolu olub.

Qeyd edək ki, Naxçıvan Döyüş Şöhrəti Muzeyində 3 yeni eksponatdan əlavə müxtəlif illərdə muzeyə təqdim edilmiş digər hərbi texnika və silahlar da nümayiş olunur.

**Kənan CƏLİLOV**

## Səyyar seminar-müşavirə olub

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində muxtar respublika ərazisində ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, biçin zamanı taxıl zəmilərində işləyəcək kənd təsərrüfatı texnikaları və aqreqatların hazırlığı ilə bağlı səyyar seminar-müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Hasil Məmmədov, Mirtaleh Seyidov, Daxili İşlər Nazirliyinin əməkdaşı Səid Babayev və digərləri müxtəlif mövzularda çıxış ediblər.

Sonda iştirakçılara tövsiyə xarakterli yaddaş kitabçaları təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Allahverdiyev Həsən Nazim oğlunun adına olan 0200965532 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 410